*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (1) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*




***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received :10.07.2023***
***Kabul tarihi |Accepted: 20.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***



**Şikar Qasımov**

*https://orcid.org/0009-0007-2253-5945*
*Azerbaijan Technical University, professor of "Humanities" department, doctor of historical sciences, Azerbaijan, shikarqasimov@mail.ru*



**Flora Qasımova**

*https://orcid.org/0009-0007-2253-5945*
*Azerbaijan Pedagogical University, head teacher of the "Pedagogy of Primary Education" department, Azerbaijan, shikarqasimov@mail.ru*

***Atıf Künyesi | Citation Info***
Qasımov, Ş., Qasımova, F. (2023). Heydər Əliyev Siyasəti Müstəqil Azərbaycanda İnsan və Vətəndaş Hüquqları Məsələləri. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 62-75.

# Heydər Əliyev Siyasəti - Müstəqil Azərbaycanda İnsan Və Vətəndaş Hüquqları Məsələləri

***Xülasə***

*Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən 32 ildə vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə demokratik və hüquqi dövlət qurulmuşdur. Ölkə Prezidenti İlham Əliyevin Azərbaycanın inkişafi naminə imzaladığı silsilə sərən-camlar və işğaldan azad olmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri bizə əsas verir deyək ki, Azərbaycanda demokratik islahatlar uğurla davam edir. Heydər Əliyev siyasəti sayəsində müstəqil Azərbaycanda insan və vətəndaş hüquqları təmin edilmişdir.*

***Açar sözlər:*** *Cəmiyyət, islahat, hüquq, qanun, vətəndaş*

# Hayder Aliyev's Policy in Independent Azerbaijan People and Civil Rights Issues

***Abstarct***

*In the 32 years since the restoration of state independence, a number of important measures have been implemented for the establishment of civil society, legal state and democratic political structure. A democratic and legal state has been established in our country. The series of decrees signed by the President of the country Ilham Aliyev for the sake of the development of Azerbaijan and the restoration and construction works carried out in our territories freed from occupation give us a reason to say that democratic reforms are continuing successfully in Azerbaijan. Thanks to Heydar Aliyev's policy, human and civil rights have been ensured in independent Azerbaijan.*

***Keywords:*** *Society, reform, law, law, citizen*

## Giriş

Vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. İnsan və vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti qurmaq olmaz, nə də hüquqi dövləti formalaşdırmaq mümkün olmaz. Cəmiyyətdə qeyd edilən hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərmiş olur. Azərbaycan da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçdiyindən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin edir. Müasir cəmiyyətin mühüm mövcudluq forması kimi qəbul edilmiş insan hüquqları ideyası çətin inkişaf mərhələlərindən keçmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından keçən illər ərzində böyük inkişaf yolu keçməsi dünya miqyasında qəbul olunan reallıqdır. 32 ildə qüdrətli ölkəyə çevrilən, dünyada öz mövqeyini

cəsarətlə bildirən, hüquqi dövlət quran Azərbaycan hər bir vətəndaşının qarantına çevrilmişdir. Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol bir daha göstərir ki, vətəndaş cəmiyyətinin əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Respublikamızın inkişaf tarixinə bir daha nəzər salsaq görərik ki, hələ 1970-ci illərdən ölkədə inkişaf edən sosial, iqtisadi, təhsil və mədəni quruculuq işləri başlamışdı. Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən qısa bir dövrdə vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilmiş və öhdəliklərə imza atılmışdır.

Biz tarixi zaman ardıcıllığını özündə daşıyan sistemli inkişafın insan hüquqlarının ardıcıl qaydada və əhatəli formada təmin olunmasına xidmət etməsini nəzərə alsaq, onda belə qənaətə gələ bilərik ki, müstəqil ölkəmizdə insan hüquqlarının inkişaf tarixi iki mərhələni – 1993-2003 və 2003-cü ildən sonrakı dövrləri əhatə edir. Bu iki mərhələni eyni məzmun və istiqamətdə məhz insan hüquqları üzrə normativ-hüquqi bazanın yaradılması və bu bazanın istiqamətləndirilməsi tamamlamışdır. Hər iki mərhələdə əldə edilən baza ardıcıl tarixi mərhələ üzrə həm sabitliyin təmin olunmasına yönəldilmiş, həm də sabit şəraitdə inkişafın əsasını meydana gətirmişdir. 1993-2003-cü illəri əhatə edən mərhələnin davamı olaraq 2003-cü ildən sonra görülən işlər əvvəlki mərhələnin bazasını daha da möhkəmlətmiş və dövlətimiz qanuna-uyğun şəkildə bir tərəfdən zənginləşmiş, digər tərəfdən isə fundamental əsaslarla sabitləşmişdir. İnsan hüquqları ideyası öz kökü etibarilə qədimlərə, antik dövrlərə gedib çıxsa da, bu ideyanın müasir fəlsəfi-siyasi əsasları XVII-XVIII əsrlərdə böyük maarifçilik dövründə formalaşmışdır. 1776-cı ildə qəbul olunmuş Virciniyanın Hüquqlar Bəyannaməsində, elə həmin il qəbul edilmiş ABŞ-nın İstiqlal Bəyannaməsində, Fransanın 1789-cu ildə qəbul edilmiş İnsan və vətəndaş hüquqları Bəyannaməsində bütün insanların təbiət etibarilə bərabər, azad və müstəqil olması, yaşamaq hüququ, mülkiyyət azadlığı, xoşbəxtliyə və təhlükəsizliyə can atmaq və nail olmaq hüququ kimi anadangəlmə hüquqlara malik olması qeyd olunurdu. hüquqi yanaşma baxımından insan hüquqları və azadlıqları haqqında normalar ilk dəfə 1776-cı ildə Virciniya ştatının Konstitusiyasında, daha sonra isə 1791-ci ildə ABŞ Konstitusiyasına "Hüquqlar haqqında Bill" adlı ilk on düzəlişdə təsbit edilmişdir. Bu sənədlər sonralar dünyanın bir çox ölkələrinin siyasi və hüquqi inkişafına əhəmiyyətli təsir göstərmişdir (http://strateq.az/). İkinci Dünya müharibəsindən sonra insan hüquqları məsələsi beynəlxalq xarakter daşımağa başlayır. 26 iyun 1945-ci ildə imzalanmış Birləşmiş Millətlər Təşkllatının Nizamna-məsində insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsi beynəlxalq hüququn əsas prinsirlərindən biri kimi təsbit edilir. BMT Baş Assambleyasının 10 dekabr 1948-ci ildə qəbul etdiyi "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" (http://migration.gov.

az/images/pdf/). insan hüquqları sahəsində beynəlxalq standartlar müəyyən edən ilk sənəddir (http:// www. echr. coe. int/ Documents/ Convention_AZE.pdf ). Lakin Bəyannamə tövsiyyə xarakterli sənəd olduğundan BMT-nin üzvü olan dövlətlər üçün məcburi öhdəliklər müəyyən etmir. Ancaq 1950-ci ildən başlayaraq hər il dekabr ayının 10-u dünyada Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur. 1966-cı ilin dekabr ayının 16-da BMT Baş Məclisinin qəbul etdiyi 2 mühüm sənəd – "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" və "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" insan hüquqları sahəsində dövlətlər üçün məcburi öhdəliklər və standartlar müəyyən edir.

Azərbaycan Respublikası 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda (http://www.azerbaijan.az/portal/History/HistDocs/Documents/09.pdf). "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür. Azərbaycan Respublikası 21 iyul 1992-ci ildə "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" və "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"a, 2001-ci ilin dekabr ayının 25-də isə "Əsas hüquqların və azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşul-muşdur. Azərbaycan bu mühüm sənədlərə münasibət bildirməklə mötəbər beynəlxalq təşkilat-larla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir (Səfixanlı, 2003). Hazırda Azərbaycan Respublikası insan hüquqları və azadlıqlarına dair BMT-nin, ATƏT-in və Avropa Şurasının əksər sənədlərinə qoşulmuşdur. İnsan hüquqları və azadlıqlarına dair həmin sənədlərdə nəzərdə tutulan norma və standartlarin mütləq əksəriyyəti artıq Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə implentasiya olunmuşdur. İnsan hüquqları və azadlıqlarının təsbit olunması, təmin edilməsi və həyata keçirilməsi üçün şərait və hüquqi mexanizm yaradılması ilə əlaqədar məsələlər ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapır. Azərbaycan Respublikasının 1995-ci il noyabr ayının 12-də qəbul edilmiş Konstitusiyası insan hüquqları və azadlıqlarına dair milli qanun-vericiliyin formalaşması və inkişafının əsasını təşkil edir. Konstitusiya hər şeydən əvvəl, insan hüquqları və azadlıqlarının əsas prinsiplərini ən yüksək səviyyədə təsbit edir, insan və vətəndaş hüquqları və azadlıqlarını nəzərdə tutur və onların müdafiə mexanizmini müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq

və azadlıqlarına önəm verən ən demokratik konstitusiyalardan biridir. 5 bölmə, 12 fəsil və 158 maddəni özündə birləşdirən bu Ali Qanunun bütöv bir fəsli və 60-a yaxın maddəsinin (Konstitusiyamızın təqribən üçdə iki hissəsinin) məhz insan hüquq və azadlıqları ilə bilavasitə bağlılığı dövlətimizin hüquqi və demokratik prinsipləri uca tutmasını, demokratik cəmiyyət və demokratik dövlət quruculuğuna necə böyük önəm verdiyini təsdiq edir. Sənədin 2-ci bölməsinin- Konstitusiyanın “Əsas insan hüquqları və azadlıqları” adlanan və 48 maddədən ibarət olan III fəsli insan hüquqları və azadlıqlarının geniş dairəsini nəzərdə tutur.

Konstitusiyasının 12-ci maddəsində qeyd olunur: “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir” (Səfixanlı, 2003, s. 4-7). Bir sözlə əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyası daha çox insan hüquqları və azadlıqlarına təminat verir.

24 avqust 2002-ci, 18 mart 2009-cu və 26 sentyabr 2016-cı illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir. İnsan hüquq və azadlıqlarının universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı bir prinsip kimi Azərbaycan Respublikası Konstitusiyanın 24-cü maddəsində təsbit olunur. Həmin maddədə müəyyən edilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır (http://www.president. az/azerbaijan/). Eyni prinsiplər Konstitusiyanın 155-ci maddəsinin belə bir müddəası ilə də təmin olunur ki, Konstitusiyanın insan hüquqları və azadlıqlarını nəzərdə tutan müddəalarının məhdudlaşdırılması haqqında təkliflər Konstitusiya dəyişikliyinin predmeti ola və referenduma çıxarıla bilməz (http://www.president. az/azerbaijan/). Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən hüquqi islahatlar və məhkəmə orqanlarının təkmilləşdirilməsi söylənən prinsiplər üçün hüquqi bazaya çevrilmişdir.

Bununla yanaşı, Konstitusiyanın 71-ci maddəsi müəyyən edir ki, hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Bu, o deməkdir ki, dövlət müəyyən şərtlər daxilində insan hüquqları və azadlıqlarını məhdudlaşdıra bilər. Lakin belə məhdudlaşdırmalar yalnız Konsti-tusiya və qanunlar əsasında həyata keçirilə bilər. Bundan başqa, beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının Konstitusiyası müəyyən edir ki, dovlət və cəmiyyət həyatının ayrı-ayrı konkret vəziyyətlərində insan hüquqları və azadlıqlarnın həyata keçirilməsi müvəqqəti məhdudlaşdıra bilər. “Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt”ın 4-

cü maddəsində nəzərdə tutulur ki, millətin taleyini təhlükədə qoyan və mövcudluğu rəsmi surətdə elan edilən fövqəladə vəziyyət yarandıqda dövlət müəyyən şərtlərə riayət etməklə insan hüquqları və azadlıqlarının həyata keçirilməsini məhdudlaşdıra bilər:

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin üçüncü hissəsində müəyyən olunur ki, müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasınm beynəlxalq öhdəliklərini nəzərə almaq şərtilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

İnsan hüquq və azadlıqlarının Konstitusiya ilə təsbit olunmuş prinsiplərindən biri də hüquq və azadlıqların təminatlı olmasıdır. İnsan hüquq və azadlıqların təminatlı olması hər bir insana öz əsas hüquqlarından və azdlıqlarından istifadə üçün imkan yaradılmasını ifadə edir. Başqa sözlə, dövlət insan hüquqları və azadlıqlarının bütün mümkün vasitələrlə real surətdə həyata keçirilməsini təmin etməyə borcludur. İnsan hüquqları və azdalıqlarının təminatlı olması "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın 2-ci maddəsində təsbit olunmuşdur.

Beynəlxalq Paktın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya-sının 12-ci maddəsinin birinci hissəsində insan hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədlərindən biri kimi elan edilir. Konstitusiyanın 26-cı maddəsində təsbit olunur ki, dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Konstitusiyanın 71-ci maddənin birinci hissəsinə əsasən Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin Konstitusiya ilə nəzərdə tutulmuş digər mühüm vasitəsi insan hüquqları üzrə Müvəkkildir (Ombudsmandır). Ombudsman ölkədə elə bir vəzifə sahibidir ki, o xəbər və yaxud heç bir məlumat vermədən hər hansı güc strukturunun qapısını aça bilər. Eyni zamanda, ombudsman istənilən bir formada məsuliyyətə cəlb edilmiş şəxsin hüquqları ilə bağlı maraqlı sorğu toplaya bilər. Bununla yanaşı, pentensiar xidmətdə cəza çəkən insanların saxlanma və digər hüquqları ilə bağlı araşdırma aparmaqda ombudsmanın səlahiy-yətləri çərçivəsinə daxilidir. İnsan hüquqları üzrə müvəkkilin yeganə və əsas funksiyası Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan

Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsidir. Azərbaycan Respublikasının istənilən vətəndaşı, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxs dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulduğu güman edilən hüquqlarının və azadlıqlarının bərpası üçün ombudsmana müraciət edə bilər. Bundan başqa insan hüquqları sahəsində məsələlərin işıqlandırıl-ması müvafiq dövlət orqanları ilə yanaşı, KİV-in üzərinə düşən əsas vəzifələrdəndir. İnsan hüquqlarının qorunması sahəsində mətbuatın imkanlarından istifadə edilməli və bu sahədə mətbuatla Ombudsman Aparatı arasında səmərəli əməkdaşlığın qurulması vacibdir.

Bu gün ölkədə fəaliyyət göstərən Ombudsman Aparatı, Milli Məclisdə insan hüquq və azadlıqlarının təminatı ilə bağlı, qəbul olunmuş qanunlar bu fikri bir daha təsdiqləmiş olur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda fəaliyyət göstərən bütün KİV-lərin Ombudsman Aparatı ilə sıx əlaqələri mövcuddur. Bu isə, öz növbəsində, insanların hüquqlarının onlara aşılaması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan 1992-ci ilin martın 2-dən BMT-nin, 2001-ci ilin yanvarın 25-dən isə Avropa Şurasının üzvü olmuşdu. 220-dən artıq beynəlxalq müqavilənin iştirakçısıdır. Bütün bunların təxminən yarısı insan hüquq və azadlıqları ilə bağlıdır. İnamla demək olar ki, bu gün Azərbaycan Respublikasında insan hüquqları və azadlıqları hüquqi cəhətdən həm Konstitusiya və həm də qanunvericilik aktları səviyyəsində təmin olunur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1998-ci il dekabrın 10-da Bakıda təşkil olunmuş BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda dövlət siyasətinin əsası, insanların hüquqlarının təmin edilməsindən ibarət olmasını bildirmiş və gələcək siyasətin baza ideologiya-sını insan hüquqları ilə sıx bağlamışdı: "Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu üç söz bizim dövlət quruculuğumuzun əsas mənasını, məzmununu, əsas prinsiplərini təşkil edir. Bu sözlərin üçü də– demokratiya da, hüquq da, dünyəvilik də insan haqlarından irəli gələn sözlərdir. Beləliklə, biz müstəqil Azərbaycanda öz strateji yolumuzu artıq müəyyən etmiºik və bu yolla gedirik" (http: //lib. aliyev heritage. org/az/). Azərbaycan cəmiyyətində dövlət-vətəndaş münasibətlərinin hüquqi tənzimlənməsi, hüquqi dövlət ideyasının gerçəkliyə çevrilməsi, demokratik idarəetmə sisteminin formalaşması xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndərin ardıcıl həyata keçirdiyi strateji dövlətçilik xəttinə uyğun olaraq müstəqillik illərində vətəndaş cəmiyyəti və hüquqi dövlətin qurulması, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində xeyli işlər görülmüş, ən yüksək

beynəlxalq standartlara cavab verən hüquq məkanı formalaşmışdır. Müstəqil Azərbaycanın dünyəvi-hüquqi dövlət kimi inkişaf perspektivlərini dəqiq müəyyənləş-dirən zəruri təməl formalaşdırılmışdır. Azərbaycanda insan hüquqlarının təmin olunması siyasətinin fundamental əsası Ülu öndər Heydər Əliyevin müəllifi olduğu, 1995-ci ildə referen-dum yolu ilə qəbul edilən müstəqil Respublikamızın ilk Konstitusiyası ilə (http://justice.gov.az/). qoyulmuşdur.

Ölkədə hüquqi islahatların ardıcıl və davamlı həyata keçirilməsi, insan hüquqları və azadlıqlarının müdafiəsini təmin etmək, qanunun aliliyini möhkəmləndirmək, bütün hakimiyyət qollarının qarşılıqlı fəaliyyətini gücləndirmək məqsədilə Ulu öndərin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradıldı. Həmin ildə "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Haqqında Avropa Konvensiyası"nın müddəalarına uyğun Azərbay-canda yeni qanunlar hazırlandı. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəltdi. 1997-ci ildə "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu. Bu qanuna uyğun olaraq, insanların konstitusiya hüququnun müdafiəsi də önəmli yerlərdən birini tutdu, bununla əlaqədar qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü konkretləşdirildi. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun qəbul edilməsi. Hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etməsinə, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsinə, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaratdı.

"İnsan hüquq və azadlıqlarını təmin və polisin fəaliyyətini tənzim etmək məqsədilə hüquq-mühafizə orqanları sistemində mühüm yer tutan "Polis haqqında" qanun qəbul edildi. Qanuna görə polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquq pozmaların qarşısının alınması və onların açılması, habelə, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərir və polisin səlahiyyətləri qanunda dəqiq müəyyən edilirdi. Beləliklə, Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

Ulu öndərin “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 22 fevral 1998-ci il tarixli Fərmanı (http://www.e-qanun.az/). ilə insan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində strateji məqsədlər, insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının layihəsinin hazırlanması, qaçqınların və məcburi köçkünlərin, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi ilə əlaqədar təkliflərin hazırlanması və s. bu kimi məqsədlərə nail olmaq üçün tədbirlər planı müəyyən olundu. Bu proseslərin məntiqi davamı kimi, Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiqləndi. Dövlət Proqramında insan hüquqları üzrə səlahiyyətli Müvəkkil təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməs və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, və digər mühüm məsələlər nəzərdə tutulurdu. Bu gün tam əminliklə söyləmək olar ki, qeyd olunan proqramda nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilmişdir.

Ölkəmiz ölüm hökmünün ləğvinə münasibətdə də dünyanın inkişaf etmiş ölkələrinə nisbətən mütərəqqi mövqedədir. Azərbaycan Respublikasında 1993-cü ildə ölüm hökmünün icrasına moratorium qoyulmuş, 1998-ci ilin fevral ayının 10-da isə tamamilə ləğv edilmişdir. Müqayisə üçün qeyd edək ki, ABŞ-ın 38 ştatının qanunvericiliyində ölüm hökmü ləğv edilmədiyindən bu ölkə Uşaq Hüquqlarına dair Beynəlxalq Konvensiyanı hələ də imzalamamışdır. İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən Ulu öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkil təsisatının yaradılması nəzərdə tutulmuşdur. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi (http:// www.respublica -news.az/). İnsan hüquq və azadlıqlarının təminatı sahəsində atılan digər bir uğurlu addımlardan biri Ümummilli lider Heydər Əliyevin 30 noyabr 1998-ci il tarixli Sərəncamı əsasında Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 26 may 1999-cu il tarixli qərarı ilə İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun yaradılması olmuşdur. İnstitutun məqsədi cəmiyyətin demokratikləşməsi, insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin

aparılması, elmi tövsiyələrin hazırlanması və bu sahədə hüquqi biliklərin dərinləşdirilməsi olmuşdu.

Azərbaycanda bir çox MDB ölkələrindən tez – 2001-ci il dekabrın 28-də Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul etmişdir [3]. Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılmışdır. 2002-ci il martın 5-də Ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tətbiq edilməsi barədə Fərman imzalamışdır. Azərbay-canın ilk ombudsmanı 2002-ci il iyulun 2-də Milli Məclisdə Prezident Heydər Əliyevin təqdim etdiyi üç namizəd arasından 111 səslə seçilmişdir (http://www.e-qanun.az/framework/1413). Ombudsman institutunun yaradılması, vətəndaşların Konstitusiya Məhkəməsinə, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinə birbaşa müraciət imkanı əldə etmələri demokratik dəyərlərin əsasını təşkil edən insan hüquq və azadlıqlarının təsbit olunması istiqamətində qazanılan növbəti uğur idi.

Ümummilli liderin insan hüquqlarının qorunması, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf istiqamətində həyata keçirdiyi siyasət onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməkdədir. Bunu çoxlu sayda imzalanan qərar və sərəncamlardan da aydın görmək mümkündür. Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsinə dair imzaladığı Sərəncam mühüm əhəmiyyətə malikdir. Sərəncamda Azərbay-canın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir (http://justice.gov.az/). Sərəncamda xüsusi vurğulanmışdır ki, hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir.

Respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edirdi. Bu baxımdan dövlət başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılı-ğının təmin olunması məqsədini daşıyaraq, eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir

(http://president.az/articles/4089). Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin – qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunurdu.

Onu da qeyd edək ki, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəlili-yini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsep-siyasında nəzərdə tutulan istiqamətlər üzrə Azərbaycanda artıq bir sıra işlər görülmüşdür. Ancaq, ölkəmizdə insan hüquqlarının maksimum təminatına maneə yaradan problemlər mövcuddur. Bu maneələr beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə bütün ölkələr tərəfindən əməl olunmamasıdır. Məsələn, bu gün ərazi bütövlüyünün pozulması, etnik separatizmin və terrorizmin yalnız konkret dövlət əleyhinə deyil, bütün bəşəriyyət əleyhinə yönəldilmiş cinayətlər kimi təsbit edilməsi, dunyada hüquqları ən çox pozulan insanların– qaçqın və məcburi köçkünlərin status və problemlərinin həlli məsələsində açıq-aşkar boşluğun olması həqiqətdir. Ermənistan tərəfindən 30 ilə qədər işğal altında saxlanılan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda insan hüquq və azadlıqları kobud şəkildə pozulmuşdu. 1 milyondan artıq insan ev-eşiyindən didərgin düşmüş, ümumən Azərbaycanın 20 faiz torpaqları işğal altında qalmışdı. Amma dünya birliyi Ermənistanı indiyə qədər cəzalandırmadı. Bu, azmış kimi, qondarma "DQR"-da qondarma seçkilər də keçirilmişdi. Bu problemlə yanaşı, bu gün Azərbaycan cəmiyyətini narahat edən bir sıra digər məsələ-lər də hələ qalmqdadır. Onların sırasında erkən nikahların olması, qızların məktəbdən uzaqlaş-dırılması, məişət zorakılığı, qadınlara qarşı olan zorakılıqlar, insan alveri, qan qohumlarının yaratdığı fəsadlar, düşünülməmiş nikahlar, boşanmalar hələ də cəmiyyətimizi narahat edən məsələlərdəndir. Bu hallara qarşı həm dövlət səviyyəsində, həm də başqa-başqa vasitələrdən istifadə edərək, mübarizə aparılır.

Azərbaycanda insan hüquqlarının qorunmasının əsas göstəriciləri olan tolerantlığın yüksək səviyyədə təmin edilməsi, irqi ayrı-seçkiliyə heç bir vəchlə yol verilməməsi çox mühüm uğurlarımızdır. Azərbaycan tarixin heç bir dönəmində milli-dini zəmində qarşıdurmanın və ayrı-seçkiliyin olmadığı nadir ölkələrdən biridir. Müxtəlif millətlərdən, dinlərdən olan, ayrı-ayrı adət-ənənələrə, mədəniyyətlərə mənsub olan insanlar arasında dostluq münasibətlərinin təmin edilməsi, milli-dini tolerantlığın hökm sürməsi dövlətimizin tarixi nailiyyətidir. Azərbaycanlılar heç vaxt başqa xalqlara və dinlərə qarşı mənfi münasibət göstərməmiş, düşmənçilik etməmiş, ədavət aparmamış və digər xalqın nümayəndəsini öz dininə və mədəniyyətinə itaət etməyə məcbur etməmişdir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin Qeyri-

hökumət təşkilatlarına (QHT) Dövlət Dəstəyi haqda 2007-ci il 27 iyul tarixli və QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması haqda 2007-ci il 13 dekabr tarixli fərmanları bunu göstərir (http://www.mfa.gov.az/). Cəmiyyətin demokratikləşməsində və islahatların həyata keçirilməsində xüsusilə QHT-lərin rolu getdikcə artmışdı. QHT-lər ölkədə demokratik quruluşu dəstəklənməsi, dünyəvi dövlət qurulması, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində fəallıqlarını artırmışlar. QHT-lər dövlətin idarə olunmasında və vətəndaşların siyasi hüquqlarının təminatında ictimai nəzarət funksiyasını yerinə yetirməyə cəhd göstərirlər. Onların Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsinin əsil mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində, milli dəyərlərin qorunması və təbliği sahəsində gördüyü işlər mühüm əhəmiyyətə malikdir.

Göründüyü kimi XX əsrin sonu və XXI əsrin əvvəllərində Vətəndaş cəmiyyəti öz inkişafında yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə vətəndaş cəmiyyəti və hüquqi dövlət bazar iqtisadiyyatı, demokratiya, millət ideyası, milli dövlət ümumbəşəri sərvətə çevrilmişdir. Siyasi plüralizm, söz, fikir, mətbuat azadlığı və çoxpartiyalı sistem formalaşmışdı. Bu gün Azərbaycan inkişaf etmiş ölkələr arasında xüsusi yeri və böyük nüfuzu olan dövlətdir. Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının keçdiyi inkişaf yoluna nəzər saldıqda istər-istəməz XX əsrin 90-cı illərinin əvvəlləri yada düşür. Xalqımız 1991-ci ildə milli dövlətçiliyini bərpa etsə də, çoxlu mənəvi sarsıntılara məruz qalmış, böhranlı, ağrılı-acılı və faciəli günlər yaşamışdır. Azərbaycanın müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin yayında xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə içtimai-siyasi sabitliyin təmin edilməsinə nail oldu və bütün sahələrdə əsaslı islahatların aparılması üçün zəmin yaratdı. Bunların nəticəsidir ki, bu gün Azərbaycan inkişaf etmiş ölkələr arasında xüsusi yeri və böyük nüfuzu olan dövlətdir.

**Nəticə**

Ulu öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq, milli mənafenin, dövlətçilik maraqlarının üstün tutulması ideyası 2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsipini təşkil edir. Azərbaycan Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbay-can Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl və məqsədyönlü siyasətin (http:www.president.az/articles/4017). parlaq nümunəsidir. Heydər Əliyev siyasətinin davamı olaraq müstəqillik illərində demokratik institutların formalaşması və inkişafı istiqamətində

xeyli işlər görülmüşdür. Xüsusilə, insan hüquq və azadlıqlarının təmin olunması, siyasi partiyalar və vətəndaş cəmiyyətlərin inkişafına özəl yanaşma ortaya qoyulmuşdu. Keçən illərdə Bələdiyyə üzvlərinin təhsil səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli yüksəlmişdir. 2004-cü il bələdiyyə seçkilərində ali təhsillilər 34 faiz təşkil edirdisə, 2014-cü ildə ali təhsilli bələdiyyə üzvləri 89,8 faiz təşkil etmişdir. 2004-cü ildə ali təhsilli bələdiyyə sədrləri 44 faizi idisə, hazırda bütün bələdiyyə sədrləri ali təhsillidir. Son dövrlər dövlət qurumlarında müşahidə olunan gəncləşmə siyasəti gənclərin aktivliyinə səbəb olmuşdur. Belə ki, 2004-cü ildə bələdiyyəyə seçilmiş gənclərin sayı 500 nəfər, yəni 2 faiz təşkil etmişsə, 2014-cü ildə bu 36,42 faizə qədər yüksəlmişdir. Ən yaxşı hal qadınların ölkənin ictimai-siyasi həyatında iştirakı, dövlət orqanlarına irəli çəkilmə hallarında yüksək göstəricilik müşahidə edilmişdir. İlk bələdiyyə seçkilərilə müqayisədə bu göstərici 6 dəfə artmışdı. Bələdiyyə üzvlərinin sırasında qadınların payı 4 faizdən yüksələrək 35 faiz təşkil etmişdir.

Ombudsmanın təşəbbüsü ilə təsdiq olunmuş "18 iyun Milli İnsan Hüquqları Günü" ərəfəsində ənənəvi olaraq hər il respublikamızda "İnsan hüquqları aylığı" keçirilir. Aparilan müzakirələr əsasında dövlət qurumlarına verilən xeyli təklifin yarıdan çoxu təmin olunmuşdur. Ölkə Prezidenti tərəfindən son illərdə 60-dan çox əfv fərmanı imzalanmış, Milli Məclis isə 10-dan çox amnistiya aktı qəbul etmişdir ki, bu da minlərlə islah olunmuş məhkumun azad edilməsinə, cəmiyyətə qovuşmasına kömək etmişdir.

2019-cu il Azərbaycanın siyasi və iqtisadi həyatında dərin islahatlar dövrü kimi yadda qalmışdı. Ən əsası odur ki, bu islahatlar Azərbaycan vətəndaşlarının mənafeyinə xidmət etmi°di. Sosial paketlər ölkədə sosial rifahın daha da yaxşılaşdırılmasına yol açmışdır. İşsizlik 49 faizdən 5 faizə düşmüş və yoxsulluq səviyyəsi kəskin şəkildə azalmışdı. Ən əsası həyata keçirilən islahatlar, cəmiyyətin inkişafı müxtəlif vaxtlarda Konstitusiyaya əlavə və dəyişikliklər etmək zərurəti yaratmışdı. Ölkəmizdə 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə Konstitusiyaya dəyişikliklər edilmişdi. Bu dəyişikliklərin hər biri demokratik inkişafın tələblərindən irəli gəlməklə islahatlarının həyata keçirilməsinə, seçki sisteminin, dövlət idarəçilik sisteminin və Milli Məclisin fəaliyyətinin təkmilləşdirilməsinə yol açmışdı. Keçirilən islahatların məntiqi nəticəsi olaraq demək olar ki, cəmiyyətin inkişafında, Multikultural dəyərlərdə, tolerantlıqda olduğu kimi, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində də bir Azərbaycan modeli yaran-mışdır. Azərbaycan hazırda inkişaf edir və qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin xalqın intellektual potensialının, təhsilinin, elminin, mədəniyyətinin inkişafı naminə imzaladığı silsilə sərəncamlar və işğaldan azad olmuş əraziləri-mizdə 2023-cü ildə aparılan bərpa-quruculuq işləri bizə əsas verir deyək ki, Azərbaycanda demokratik islahatlar uğurla

davam edir. Heydər Əliyev siyasəti sayəsində müstəqil Azərbay-canda insan və vətəndaş hüquqları təmin edilmişdir.

**Ədəbiyyat**

Səfixanlı, A. (2003). *İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avrpa Konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti*. Azərnəşr.

http:// www. echr. coe. int/ Documents/ Convention_AZE.pdf

http://www.azerbaijan.az/portal/History/HistDocs/Documents/09.pdf

http://www.e-qanun.az/framework/1413

http://president.az/articles/4089

http: // www.president.az/articles/4017

http://www.president. az/azerbaijan/

http: //lib. aliyev heritage. org/az/

http://strateq.az/

http://www.mfa.gov.az/

http://www.e-qanun.az/

http://justice.gov.az/

http:// www.respublica -news.az/

http://migration.gov. az/images/pdf/